http://www.amu.edu.az

# Təbib

Təsisci: Azərbaycan Tibb Universiteti

Qəzet 1933 -cü ildən çıxır. № 20 (1638) 30 noyabr 2016 - cı il Qiymətı 50 qəpik



## Azərbaycanın görkəmli dövlət və elm xadimi Əziz Əliyevin 120 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

**2017-ci il yanvarın 1-də Azərbaycanın görkəmli dövlət və elm xadimi Əziz Məmmədkərim oğlu Əliyevin anadan olmasının 120 illiyi tamam olur.**

Əziz Əliyev müxtəlif məsul vəzifələrdə çalışaraq dövlət idarəçiliyinin təkmilləşdirilməsində səmərəli fəaliyyət göstərmiş, respublikada səhiyyə sisteminin və tibb təhsilinin formalaşdırılmasına layiqli töhfələr vermişdir. Onun İkinci Dünya Müharibəsi illərində apardığı işlər mühüm hərbi-siyasi əhəmiyyətə malikdir. Azərbaycan və Dağıstan xalqları arasında dostluq və qardaşlıq əlaqələrinin daha da möhkəmləndirilməsi Əziz Əliyevin adı ilə sıx bağlıdır.

**Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və Azərbaycan xalqı qarşısında böyük xidmətlərini nəzərə alaraq görkəmli dövlət və elm xadimi Əziz Əliyevin 120 illik yubileyinin yüksək səviyyədə keçirilməsini təmin etmək məqsədi ilə qərara alıram:**

*1. Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi, Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Əziz Əliyevin 120 illik yubileyinə həsr olunmuş tədbirlər planını hazırlayıb həyata keçirsinlər.*

*2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.*

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 18 noyabr 2016-cı il.

**BU SAYIMIZDA**

Stomatoloji Klinikada diaqnostika, müalicə, tədris işlərinin vəziyyəti müzakirə edildi 2






Azərbaycan Tibb Universitetində “Fitnə” sənədli filmi nümayiş olunub 3

Azərbaycan Tibb Universiteti Ümumdünya Səhiyyə Təşkilatı Beynəlxalq Şəbəkəsinin üzvü oldu 3

ATU və Elsevier Clinical Solutions kompaniyası arasında əməkdaşlıq sazişi imzalanıb 5



ATU Tələbə Gənclər Təşkilatının sədri Bişkəkdə Tələbə Şurasının ilk iclasında çıxış edib 3

Tanınmış professor Cuzeppe Cornaglia ATU-da qonaq olub 6



ATU-da “Düzgün kliniki Praktika” seminarı keçirilib 5

Sevənləriniz heç zaman sizi unutmayacaq 7

BÖYÜK ELMİ ŞURADA

# Stomatoloji Klinikada diaqnostika, müalicə, tədris işlərinin vəziyyəti müzakirə edildi

**Böyük Elmi Şuranın noyabrın 28-də keçirilən iclasını açan universitetin rektoru, professor Gəray Gəraybəyli gündəlikdə duran məsələlərin müzakirəsindən öncə son günlərdə aparılan kadr dəyişiklikləri haqqında məlumat verərək bildirdi ki, Səhiyyə Nazirliyinin kollegiya iclasının müvafiq qərarı ilə professor Hüseyn Qabulov Tədris Terapevtik Klinikanın direktoru vəzifəsinə təyin olunub. Rektor universitetin beynəlxalq əlaqələr üzrə prorektoru, dosent Rəhimə Qabulovanın öz xahişi və Səhiyyə Nazirliyinin kollegiya iclasının qərarı ilə tutduğu vəzifədən azad edildiyini, həmin vəzifəyə cərrahi xəstəliklər kafedrasının dosenti Nadir Zeynalovun təyin olunduğunu da şura üzvlərinin diqqətinə çatdırdı. O, universitetin elmi katibi vəzifəsinə isə tibb elmləri doktoru, ortopedik stomatologiya kafedrasının dosenti Nazim Pənahovun təyin olunduğunu dedi.**

Bundan sonra gündəlikdə duran məsələlərin müzakirəsinə başlanıldı və ilk olaraq "Azərbaycan Tibb Universitetinin Stomatoloji Klinikasında diaqnostika, müalicə, tədris işlərinin vəziyyəti və onların yaxşılaşdırılması" barədə klinikanın direktoru, dosent Alqış Səfərovun



hesabatı dinlənildi.

Azərbaycan Tibb Universitetinin Stomatoloji Klinikasının 2002-ci ilin sentyabr ayında universitetin ilk klinikası kimi Ulu Öndərin sərəncamı ilə yaradıldığını vurğulayan məruzəçi bildirdi ki, klinika öz fəaliyyətində Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyini, Səhiyyə Nazirliyinin normativ sənədlərini, Azərbaycan Tibb Universitetinin Nizamnaməsini, Universitet Elmi Şurasının qərarlarını, rektorun əmr və sərəncamlarını və Stomatoloji Klinikanın Əsasnaməsini rəhbər tutur.

Klinikanın maddi-texniki bazası və fəaliyyət istiqaməti haqqında ətraflı məlumat verən A.Səfərov stomatologiya fakültəsinin bütün profil kafedralarının bu klinikada yerləşdiyini dedi: "Stomatoloji Klinikanın strukturu 5 kafedradan və 7 şöbədən ibarətdir ki, bunlara terapevtik stomatologiya, ortopedik stomatologiya, uşaq stomatologiyası, ümumi stomatologiya, ağız və üz-çənə cərrahiyyəsi kafedraları, eyni zamanda klinikanın I mərtəbəsində yerləşən praktiki şöbə və kabinetlər aiddir. Praktiki şöbə və kabinetlərə terapiya, cərrahiyyə, ortopediya şöbələri, fizioterapiya, rentgen, LOR kabinetləri və diş texniki laboratoriyası daxildir.

Beynəlxalq təhsil qaydalarına uyğun olaraq, həkim-stomatoloq hazırlığı məqsədilə 2014-cü il sentyabr ayından Stomatoloji Klinikanın Tədris Mərkəzi fəaliyyətə başlamışdır".

Klinikada 304 nəfərdən ibarət universitet əməkdaşının fəaliyyət göstərdiyini, onlardan 128 nəfərin professor-müəllim heyəti, o cümlədən 7 nəfərin tibb üzrə elmlər doktoru, professor, 4 nəfərin tibb üzrə elmlər doktoru, dosent, 30 nəfərin tibb üzrə fəlsəfə doktoru, dosent, 51 nəfərin isə tibb üzrə fəlsəfə doktoru olduğunu deyən A.Səfərov klinikada stomatologiya ixtisası üzrə 60 həkim-rezidentin təhsilini davam etdirdiyini, 4 nəfərin doktorantura kursu keçdiyini, əməkdaşlardan 22 nəfərin dissertasiya işi üzərində çalışdığını da söylədi. Onu da qeyd etdi ki, klinikada III, IV və V kursların tələbələri üçün istehsalat təcrübəsi aparılır".

Kafedraların və şöbələrin 1 illik fəaliyyəti haqqında məlumat verən klinikanın direktoru bir yeniliyi də diqqətə çatdırdı: "Tibb Universitetinin Stomatoloji Klinikasında respublikada ilk dəfə olaraq ambulator şəraitdə ümumi ağrısızlaşdırma altında müalicə işləri aparılır. Bu anesteziya növünün cərrahiyyə şöbəsində tətbiqi nəticəsində klinikaya müraciət edən əhaliyə, eləcə də fiziki və əqli çatışmazlığı olan xəstələrə yüksək keyfiyyətli stomatoloji xidmətin müasir səviyyəyə uyğunlaşmasını həyata keçirməyə imkan yaradır. Fürsətdən istifadə edərək hörmətli rektora bu yeniliyi tədbiq etmək üçün verdiyi razılığa, təşkilati dəstəyə, göstərdiyi yardıma və diqqətə görə klinikamızın əməkdaşları və burada şəfa tapmış xəstələrin adından təşəkkürümüzü bildiririk".

Bir il müddətində universitetin orta hesabla 1500 tələbəsinin stomatologiya fənləri üzrə tədris keçdiyi klinikada yaradılan şəraitlə bağlı fikirlər də məruzədə öz əksini tapdı: "Stomatoloji Klinikada yerləşən 138 tədris-kliniki kabinetin ən müasir stomatoloji qurğu və tibbi avadanlıqlarla təchiz olunması, 3 geniş monitorla təchiz olunmuş mühazirə zallarında stomatologiya fakültəsi tələbələrinin, eləcə də V kurs I və II müalicə-profilaktika, III kurs tibbi-profilaktika, V kurs hərbi-tibb, II kurs hərbi-feldşer fakültələrinin tələbələrinin tədris proqramlarına uyğun mühazirə və praktik dərslərin qabaqcıl üsullarla aparılması dünyada qəbul olunmuş standartlara uyğunluğun nümunəsidir".

Bu 1 il ərzində Bakı şəhərində təşkil olunan 15 beynəlxalq seminar və konfranslarda klinikanın yaratdığı şərait nəticəsində stomatologiya fakültəsinin tələbələri və rezidentlərinin ödənişsiz iştirak etdiyini vurğulayan klinikanın direktoru eyni zamanda tələbələr və rezidentlər üçün müxtəlif mövzularda seminarlar və master-klasların keçirildiyini də diqqətə çatdırdı.

A.Səfərov hesabat məruzəsində professor-müəllim heyəti tərəfindən aparılan elmi-tədqiqat işlərinin nəticələrinə də toxundu: "2015-2016-cı illər ərzində tamamlanmış və Müdafiə Şurasından keçmiş dissertasiyaların sayı 13 təşkil etmişdir. Hal-hazırda Stomatoloji Klinikada tibb üzrə elmlər doktoru adı almaq üçün 14, tibb üzrə fəlsəfə doktoru adı almaq üçün 25 nəfər, eyni zamanda ixtisas kafedralarında 6 nəfər doktorant elmi-tədqiqat işlərini davam etdirirlər. Stomatoloji Klinikada yerləşən kafedra əməkdaşları tərəfindən elmi-tədqiqatların nəticələri barəsində 108 məqalə və tezis, o cümlədən respublikada 52, xaricdə 56 elmi iş çap olunmuşdur".





A.Səfərov məruzəsinin sonunda bu gün Stomatoloji Klinikada aparılan diaqnostika və müalicə işlərinin dünya stomatologiyasının müasir nailiyyətlərini tam əks etdirməsinə baxmayaraq, hələ də qarşıda həllini gözləyən məsələlərin durduğunu və kollektivin bu məsələləri həll etmək üçün səylərini daha da artıracağına əminliyini bildirdi.

Məruzə ətrafında çıxış edən ümumi stomatologiya kafedrasının müdiri, professor Tamara Hüseynova klinikada təchizatın daha da yaxşılaşdırılmasının, şəhər konfransları keçirərək burada uğurların və səhvlərin müzakirə edilməsinin vacibliyini söylədi.

Klinikada nailliyyətlərin də, çatışmazlıqların da olduğunu bildirən uşaq stomatologiyası kafedrasının müdiri, professor Rəna Əliyeva tədrisin keyfiyyətinə xüsusi önəm verilməsi və subyektiv amillərin iş prossesinə təsiri ilə bağlı fikirlərini bölüşdü.

Ağız və üz-çənə cərrahiyyəsi kafedrasının müdiri, professor Çingiz Rəhimov hələ sovet dönəmində təsərrüfat hesablı stomatoloji xidmətin olduğunu diqqətə çatdıraraq bildirdi ki, yüksək keyfiyyət kifayət qədər yatırımın sayəsində qazanılır.

Müasir tədris mərkəzində geniş imkanların yaradıldığını deyən terapevtik stomatologiya kafedrasının müdiri, professor Ağa Paşayev buradakı avadanlıqların daim yenilənməsinin, dərsliklərin hazırlanmasının zəruriliyindən danışdı.

Tədris hissə müdiri, dosent Nəsimi Qasımov tarixə ekskurs edərək bu gün hesabatını dinlədiyimiz klinikanın yaradılması istiqamətində qarşıya çıxan çətinliklərdən söhbət açdı.

Müzakirələrə yekun vuran rektor klinikaların yaradılmasını universitetimizin ən böyük tarixi nailiyyəti kimi dəyərləndirdi. Hər il Böyük Elmi Şuranın yığıncaqlarında klinikaların hesabatlarının dinlənilməsinin zəruriliyini vurğulayaraq, bu sıradan bir neçə il əvvəl professor Surxay Musayevin çox dolğun hesabat məruzəsi ilə çıxış etdiyini xatırlatdı. Onu da qeyd etdi ki, klinikaların hesabatları kafedraların hesabatları üzərində qurulmamalıdır.

Yeni ildən tədris terapevtik və cərrahi klinikaların dövlət tərəfindən maliyyələşdirilməsinin dayandırılacağını söyləyən rektor bunun müəyyən baxımdan bir sınaq, müsbət hal olduğunu dedi: "İndi bütün ümidlər klinikanın özünə, orada işləyən həkimlərədir. Klinika özünü doğruldacaqsa, bir müalicə müəssisəsi kimi fəaliyyət göstərəcək. Əks təqdirdə elə 4 divar, stol, stul və tələbələr qalacaq".

Diqqəti hesabatda da öz əksini tapan bəzi rəqəmlərə yönəldən rektor, Stomatoloji Klinikanın gəlirinin universitetin klinikaya ayırdığı vəsaitdən xeyli az olmasının təəssüf doğurduğunu bildirdi. Artıq bir neçə aydır ki, müsabiqəyə təqdim olunan xasiyyətnamələrə rektor və Həmkarlar İttifaqı Komitəsinin sədri ilə bərabər klinika direktorlarının da qol çəkdiyini söyləyərək qeyd etdi ki, müalicə məsələlərində iştirak etməyən assistent müalicə stafkasından məhrum olmalıdır. Ancaq bu yolla klinikaların fəaliyyətində irəliləyişlərə nail olmaq mümkündür.

Tibbi şuranın fəaliyyətinə də toxunan rektor hesabat və çıxışlarda səslənən digər məsələlərə də aydınlıq gətirdi, klinikada yerləşən avadanlıqların cüzi bir hissəsinin universitetin balansına daxil edildiyini, bunun isə universitetin nizamnaməsinə zidd olduğunu vurğuladı.

Universitetin elmi katibi, dosent Nazim Pənahov klinikaların mövcud əsasnamələrində bəzi dəyişikliklərin edilməsi haqqında təklifləri şura üzvlərinin diqqətinə çatdırdı. Dəyişikliklərə əsasən, klinika direktorları rektorun təqdimatı əsasında səhiyyə naziri, klinika direktorlarının müavinləri isə klinika direktoru və ya tədris, müalicə işləri üzrə prorektorun təqdimatı əsasında rektor tərəfindən təyin və azad olunur.

Həkimlərin işə qəbulu müsabiqə yolu ilə mərkəzləşdirilmiş qaydada, Səhiyyə Nazirliyi tərəfindən həyata keçirilir. Orta tibb heyətinə aid olan işçilər müsabiqə yolu ilə işə qəbul olunurlar. Bu, əsasən onkoloji və stomatoloji klinikalara aiddir. Belə ki, onların qüvvədə olan əsasnamələrində qeyd olunan işçilərin müsabiqə yolu ilə işə qəbul olunması əks olunmayıb.

Bütün prosedurlardan keçdikdən sonra namizədliyi irəli sürülən professor Elxan Kərimovu ortopedik stomatologiya, professor Nadir İsmayılovu isə psixiatriya kafedrasına məsləhətçi-professor seçən Böyük Elmi Şura müsabiqə məsələlərini həll etməklə öz işini yekunlaşdırdı.

**Arif MƏMMƏDLİ**

**Fotolar Cənnətalı Çingizindir**

# Azərbaycan Tibb Universiteti Ümumdünya Səhiyyə Təşkilatı Beynəlxalq Şəbəkəsinin üzvü oldu

**Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) İctimai Sağlamlıq Departamentinin Direktoru xanım Maria Neira tərəfindən Azərbaycan Tibb Universitetinə ünvanlanan məktubunda ATU-nun ÜST-ün Kimyəvi Risklərinin Qiymətləndirilmə Şəbəkəsinin üzvü olması barədə rəsmi açıqlama verilib.**

World Health Organization



Azərbaycan Tibb Universitetinin ÜST Şəbəkəsi ilə əlaqə koordinatoru, dosent İsmayıl Əfəndiyevin verdiyi məlumata görə, kimyəvi təhlükəsizlik – XXI əsrin qlobal problemlərindən biridir. 10 milyona qədər müxtəlif kimyəvi maddələrin ətraf mühitdə toplanması nəticəsində son onillikdə bütün dünyada kəskin və xroniki zəhərlənmə problemi xüsusi aktuallıq kəsb edib. Bu maddələrin çoxu sənayedə, kənd təsərrüfatında və məişətdə, başqa sözlə, bilavasitə insanlarla kontakt sferasında istifadə olunur.

Ümumdünya Səhiyyə Təşkilatının məlumatına görə, təxirəsalınmaz yardıma görə stasionara təcili daxil olanların 15-20%-ni kimyəvi etiologiyalı kəskin zəhərlənmələrə məruz qalan şəxslər təşkil edir. İl ərzində 350.000-dən artıq insan isə ancaq təsadüfi zəhərlənmədən ölür. Bundan başqa, hər il dünyada ölümlə nəticələnən 1.000.000 suiqəsdlərin təqribən ¼-i müxtəlif kimyəvi maddələrin qəbulu ilə əlaqədardır.

ÜST-ün təyininə uyğun olaraq zəhərlənməyə nəzarət anlayışına potensial təhlükəli maddələrin aşkar olunması, onların qeydiyyatı, öyrənilməsi, kimyəvi maddələrin insan orqanizminə toksiki təsir riskinin azaldılması, həmçinin kəskin kimyəvi zəhərlənmənin profilaktikası, diaqnostikası, müalicəsi, onların statistik uçotu və proqnozlaşması daxildir.

Hal-hazırda ÜST-ün Kimyəvi Risklərin Qiymətləndirilmə Şəbəkəsinə 59 ölkənin 100-dən artıq təhsil, elmi-tədqiqat və tibb müəssisələri daxildir. Azərbaycan Tibb Universitetinin bu Şəbəkənin üzvlüyünə qəbul olunması ali təhsil ocağının beynəlxalq nüfuzunun atmasının göstəricisidir və gələcəkdə Ümumdünya Səhiyyə Təşkilatının geniş potensialından istifadə edilərkən, şübhəsiz ki, bütün bunlar Azərbaycan əhalisinin kimyəvi risklərlə üzləşmələrinin azalmasına imkan verəcəkdir.

# Azərbaycan Tibb Universitetində "Fitnə" sənədli filmi nümayiş olunub

**Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sifarişi ilə hazırlanan, dini ekstremizmin və radikalizmin fəsadlarından bəhs edən "Fitnə" sənədli filmi noyabrın 22- də Azərbaycan Tibb Universitetində təqdim olunub.**

Filmin nümayişindən əvvəl ATU-nun rektoru, professor Gəray Gəraybəyli qeyd edib ki, hazırda terrorçuluq nəinki Azərbaycanda, eləcə də bütün regionda və dünyada aktual problemlərdən birinə çevrilib: "20 il bundan əvvəl ekstremizm və terrorizm ifadələrindən çox nadir hallarda istifadə olunurdu. Ancaq son illərdə hər gün bu sözləri eşidirik. Hətta ekstremizmin dini, siyasi və digər növləri də yaranıb. İndi dünyada





elə bir ölkə yoxdur ki, özünü ekstremizmdən və terrorçuluqdan sığortalanmış hesab etsin. Təəssüf ki, Azərbaycan hələ 20 il əvvəl beynəlxalq miqyaslı terrorizmlə üzləşib".

Sözünə davam edən rektor vurğuladı ki, ölkəmizin hər yerində olduğu kimi universitetimizdə də Prezident İlham Əliyevin 2016-cı ilin Azərbaycanda "Multikulturalizm ili" elan edilməsi ilə bağlı Sərəncamından irəli gələn vəzifələrin icrası, həmçinin Azərbaycan xalqının zəngin multikultural və tolerantlıq ənənələrinin təbliği, eyni zamanda, dini radikalizm və ekstremizmlə mübarizə məqsədilə silsilə tədbirlər təşkil edilir.

G.Gəraybəyli müasir dövrdə daha çox gənclərin dini ekstremizmə cəlb olunduğunu, onların müxtəlif vədlərlə aldadılıb terrorçuluğa çəkildiyini bildirib. O, xüsusilə gənclərin radikal dini cərəyanların təsiri altına düşməməsi və bu istiqamətdə məlumatlandırılması üçün "Fitnə" sənədli filminin böyük əhəmiyyət daşıdığını söyləyib. Onun sözlərinə görə, radikal dini qruplara qoşulan gənclərə yalnız maarifləndirmə yolu ilə kömək etmək mümkündür.

Tədbirdə çıxış edən Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı qeyd edib ki, bu gün dünyada bir sıra maraqlı güclər öz istəklərini yerinə yetirmək üçün dindən alət kimi istifadə edirlər. Məhz bu məqsədlə radikal dini qruplar yaradılır, xüsusilə də sülh dini olan İslamın adından istifadə olunur. M.Qubranlı komitə tərəfindən radikal dini cərəyanların yaratdığı qruplaşmalara qarşı hüquqi, iqtisadi və ideoloji formada aparılan tədbirlər barədə geniş məlumat verib. Komitə sədri əlavə edib ki, xüsusilə gənclərin radikal dini cərəyanların təsiri altına düşməməsi və bu istiqamətdə maarifləndirmənin gücləndirilməsi üçün müxtəlif tipli tədbirlərin keçirilməsi vacibdir. Dini radikalizmlə mübarizə çərçivəsində həyata keçirilən tədbirlərdən danışan komitə sədri bildirib ki, bununla bağlı respublikanın bütün bölgələrində çoxsaylı seminarlar, görüşlər keçirilir, həmçinin müxtəlif kitab və digər çap materialları nəşr edilərək yayılır. Bu səbəbdən də Dövlət Komitəsinin təşəbbüsü ilə radikalizmlə mübarizənin dini, psixoloji, hüquqi, siyasi və mənəvi tərəflərinin işıqlandırıldığı "Fitnə" adlı sənədli filmi hazırlanıb.

Sonra filmin nümayişi olub.

Adından da göründüyü kimi film dini radikalizmə qarşı mübarizənin psixoloji, hüquqi, siyasi və mənəvi aspektlərindən bəhs edir. Filmdə dini radikalizmin qurbanı olmuş insanların, eləcə də cinayət məsuliyyətinə cəlb edilmiş şəxslərin timsalında bu problemin həm cəmiyyət, həm də dövlətimiz üçün nə qədər təhlükəli olduğu bir daha dolğun şəkildə açıqlanır.

Tədbirin sonunda mövzu ilə bağlı tələbələri maraqlandıran suallar cavablandırılıb. Çıxışlarda dövlət-din münasibətlərinin əsasının ümummilli lider Heydər Əliyev tərəfindən qoyulduğu diqqətə çatdırılıb. Ölkəmizdə dövlət-din münasibətlərinin inkişafı üçün hər cür şəraitin yaradıldığı və respublikamızın tolerantlıq mərkəzi kimi tanındığı bildirilib.

**Mənsur ƏLƏKBƏRLİ**

# ATU Tələbə Gənclər Təşkilatının sədri Bişkəkdə Tələbə Şurasının ilk iclasında çıxış edib

Noyabrın 24-dən 27-dək Qırğızıstanın Bişkək şəhərində Türk Universitetlər Birliyi Tələbə Şurasının ilk iclası keçirilib. İclas Türk Universitetlər Birliyinə hazırda rəhbərlik edən Qırğızıstan-Türkiyə Manas Universitetinin ev sahibliyi ilə baş tutub.



İclasa 4 türk dövlətində fəaliyyət göstərən 16 universitetdən nümayəndə qatılıb. Azərbaycan Tibb Universitetini bu toplantıda Tələbə Gənclər Təşkilatının sədri Tural Əzizov təmsil edib. O, şura iclasında Azərbaycan Tibb Universitetinin tarixi, tədris prosesi, klinikaları, yataqxanaları və s. haqqında geniş məlumat verib. T.Əzizov toplantı iştirakçılarına ATU-nu əks etdirən slayd təqdim edib.

# ATU-nun əcnəbi tələbələri "Multikulturalizm ili"nə həsr olunmuş tədbirlərdə iştirak ediblər

**Müxtəlif etnik köklərə, dinlərə malik insanlar əsrlər boyu Azərbaycanda sülh, əmin-amanlıq şəraitində yaşamış və müstəqillik illərində də bu müsbət meyl daha da güclənib. Ölkəmizdə müxtəlif mədəniyyətlərə mənsub olan dini abidələr qorunub saxlanılıb, multikulturalizm və dini dözümlülük Azərbaycan dövlət siyasətinin bir istiqamətinə çevrilib.**




Təsadüfi deyil ki, 2016-cı il Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən "Multikulturalizm ili" elan edilib. Bu təşəbbüs çərçivəsində ölkəmizdə multikulturalizm dəyərlərini və dini dözümlülüyünü təbliğ edən çoxsaylı beynəlxalq tədbirlər təşkil olunub.

Azərbaycan Tibb Universitetinin xarici tələbələrlə iş üzrə dekanı, dosent İsmayıl Əfəndiyev bildirib ki, ATU da bu təşəbbüsə qoşularaq Bakı Beynəlxalq Tələbə Klubunun "Azərbaycan tolerantlıq modeli kimi" layihəsində iştirak edib. Qeyd edilən layihə çərçivəsində Azərbaycanın dünya üçün bir tolerantlıq nümunəsi olduğunu Azərbaycan Tibb Universitetində təhsil alan əcnəbi tələbə və gənclər vasitəsilə dünyaya çatdırılması və ölkəmizin beynəlxalq aləmdə təbliğ olunmasına böyük dəstək verilib. Noyabrın 26-da Azərbaycan Tibb Universitetinin əcnəbi tələbələri üçün Bakı şəhərində yerləşən bir sıra dini obyektlərə, o cümlədən Heydər Məscidinə, Jen Mironosits Pravoslav Kafedral Kilsəsinə, Bakirə Müqəddəs Məryəm Katolik Kilsəsinə, Bakı Krişna Şüuru Dini İcmasına, Bakı Dağ Yəhudiləri Sinaqoquna səfərlər təşkil edilib. Tələbələr həmin dini abidələrlə yaxından tanış olub, onlara multikulturalizm dəyərlərinin qorunması və təbliği sahəsində Azərbaycanda görülmüş işlər barədə ətraflı məlumat verilib və bununla bağlı canlı müzakirələr aparılıb.

Qeyd edilən ekskursiya və müzakirələr universitetimizdə təhsil alan əcnəbi tələbələrin böyük marağına səbəb olub.

**ATU-nun mətbuat xidməti**

**Həyat ucu - bucağı görünməyən, sirli - sehrli, şəfalı - cəfalı, acılı - şirinli, möhtəşəm və ecazkar bir məkandır. Ömür isə bu məkanda alovlana - alovlana, alışıb yana - yana, əriyə - əriyə sönüb qürub edən bir zamandır. Bu zaman axın - axın illərdir. Bu axının içərisində insan ömrü, insan həyatı da var. Bu vədəsiz zaman insan həyatını tələsdirir. Bu tələsən zaman axıra qovuşmağa çalışan dövranın sıçrayışıdır. Və bu sıçrayışda duyulan günlər, aylar, illərdir ki, ömürləri yaradır. Bu axının qarşısında durmaq, ona tab gətirmək bəşər övladının alnına yazılmış bir keyfiyyətdir. Bu alın yazıları bizimlə yol yoldaşı olaraq yaddaşımıza hopur, möhkəmlənir, daşlaşır. Bu isə bəşər övladının əbədi, əzəli, qaynar vulkana bənzəyən insan həyatıdır. İnsan həyatının mənasını gözəl işlərə həsr etməkdə görür, özündən sonra ölməz, xatirələrə dönən, nurlu - işıqlı əbədiyyət yaradır. Belədə Ulu Tanrının yaratdığı insan öz yaratdıqları ilə əbədi yaşayır. Bu isə insanı tarixə çevirir, zamanın ovcunda əzilən deyil, qalib gələn ziyaya döndərir. Belə ziyalılardan biri də Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, əməkdar elm xadimi, iqtisad elmləri doktoru, professor Aqil Əlirza oğlu Əliyev olmuşdur.**

### *AQİL ƏLİRZA OĞLU ƏLİYEVİN 90 İLLİK YUBİLEYİ QARŞISINDA*

# GÖRKƏMLİ İQTİSADÇI ALİM

Aqil Əlirza oğlu Əliyev 1926-cı il dekabrın 10-da Naxçıvan şəhərində anadan olmuşdur. Naxçıvan şəhərində orta məktəbi bitirdikdən sonra 1946-cı ildə Bakı Dövlət Universitetinə daxil olmuş və 1951-ci ildə oranı bitirmişdir. 1953-cü ilə qədər Azərbaycan EA tarix institutunda elmi işçi vəzifəsində çalışmışdır. İqtisad elminə böyük marağı olduğundan 1953-cü ilin may ayında Azərbaycan Tibb İnstitutunun siyasi - iqtisad kafedrasında işə başlamış və ömrünün sonuna qədər burada çalışmışdır. O, 1970-cı ildə iqtisad elmləri namizədi, 1983-cü ildə iqtisad elmləri doktoru alimlik dərəcəsinə, 1973-cü ildə dosent, 1979-cı ildə professor elmi adlarına layiq görülmüşdür. 2001-ci ildə Azərbaycan MEA-nın müxbir üzvü seçilmişdir.

A.Əliyevin elmi - pedaqoji fəaliyyəti sahəsindəki xidmətləri ayrı - ayrı dövrlərdə dövlətimiz tərəfindən layiqincə qiymətləndirilmişdir. O, əməkdar elm xadimi fəxri adına, "Şöhrət" və "Qırmızı əmək Bayrağı" ordenlərinə və s. medal, fəxri fərman və təltiflərə layiq görülmüşdür.

Azərbaycan MEA-nın müxbir üzvü, professor A.Ə.Əliyevin apardığı tədqiqat işləri çoxsahəli olsa da, onun elmi yaradıcılığında əsas yeri sosial iqtisadi problemlər, əhalinin həyat səviyyəsinin yüksəldilməsi, ərzaq və istehlak problemlərinin həlli, səhiyyənin iqtisadiyyatı, əhalinin sağlamlığının sosial-iqtisadi və demoqrafik inkişaf aspektlərinin tədqiqi və s. tutur. Bu problemlər onun 190-a yaxın elmi-tədqiqat əsərində, 13 sanballı monoqrafiyada, 6 dərslik və dərs vəsaitində, 3 tədris-metodik göstəricidə öz əksini tapmışdır.

Azərbaycanda ilk dəfə olaraq "Şəxsi istehlakın iqtisadiyyatı və problemləri", "Aqrar iqtisadiyyatının aktual problemləri", "Kənd əhalisinin həyat səviyyəsinin yüksəldilməsi problemləri", "Səhiyyədə iqtisadiyyat, planlaşdırma, idarəetmə, maliyyələşdirmə və əməyin elmi təşkili", "ASK-nın aqrar bölməsində elmi - texniki tərəqqini sürətləndirmə problemləri" və sair sanballı monoqrafiyaların müəllifidir.

Yalnız bazar iqtisadiyyatına keçid şəraitində A.Ə.Əliyevin 80 elmi əsəri çap olunmuşdur. Onlardan "Azərbaycanın sosial - iqtisadi inkişafında islahatların rolu", "İpək Yolunun bərpası bəşəriyyətin tərəqqi yoludur", "Azərbaycanda bazar münasibətləri şəraitində əhalinin sosial problemləri", "Səhiyyənin iqtisadiyyatı", "Azərbaycanda əhalinin səviyyəsinin yüksəldilməsinin aktual problemləri", "Naxçıvan Muxtar Respublikası: nailiyyətlər, problemlər" (I və II cild), "Bazar iqtisadiyyata keçid: dövlətin iqtisadi siyasi", "Bələdiyyələr. Metodik kömək", "Dünya iqtisadiyyatı: müasir dövrün problemləri", "Müstəqil Azərbaycan iqtisadiyyatının aktual problemləri" və sair sanballı kitabları yazmışdır.

Aqil müəllim barəsində bu gün keçmiş zamanda danışmağa adamın dili gəlmir, ona görə ki, Aqil müəllimin bütün əməlləri və fəaliyyəti xeyirxah niyyətli idi. Müdrik və xeyirxah insanlar mənən həmişə qəlblərdə yaşadıqları üçün sonradan onların həyatda yoxluqları son dərəcədə ağrı və təəssüf hissi doğurub. Bu cür insanlar millətin sərvəti hesab edilərək xalq tərəfindən ölümsüzlük statusu qazanırlar. Onlar uzun müddət unudulmayıblar. Elədikləri yaxşılıqlarda, başlarını sığalladıqları yetimlərin dualarında, qollarından tutub qaldırdıqları kimsəsizlərin ruhlarında yaşayıblar. Yaşayırlar... Aqil müəllim bax beləcə ömür sürmüş alim-ziyalı idi.

Tarixdə nə baş verirsə, onu insan edir. İnsanın yaratdığı böyük dəyərlərə qiymət verərkən biz tarixdən kənara çıxırıq. K.Yaspers yazırdı: "Biz insanı özünün yaratdığı nəhəng əməllərdə görərkən tarixin sərhəddini keçirik; bu əməllərlə insan varlığı tapıb başa düşür və onu başqaları üçün də əlçatan edir". Professor A.Əliyevin elmi və pedaqoji fəaliyyətinin özəyini məhz bu ali məqam əhatə edir.

Aqil müəllimin bir alim kimi qoyub getdiyi irsi - kitabları və elmi - pedaqoji fəaliyyətini bir qəzet məqaləsində əhatə edə bilmərik. Lakin elmi ideyaları bilavasitə praktikaya tətbiq edən alim xalqının tarixində özünəməxsus bir yer tutur.

Ulu öndərimiz H.Əliyevin sözləri ilə desək: "Hər bir alim qiymətlidir. Ancaq nəzəriyyəni təcrübə ilə birləşdirən, fikirlərini tətbiq edə bilən və onlardan əməli nəticə götürə bilən, cəmiyyətə, ölkəyə, xalqa konkret fayda gətirən insanlar alimlərin sırasında xüsusi yer tutur".

Aqil müəllim bütün zamanlarda belə alimlər sırasında özünü göstərmişdir.

Aqil müəllim zəngin elmi - pedaqoji təcrübəsi, təfəkkürün məntiqiliyi, natiqliyi, əməldə fəzilətçilik və xeyirxahlığı, fəaliyyətdə mübarizliyi və tükənməz səbri sayəsində insanlıq zirvəsini fəth etmişdir. Bu zirvə yalnız müdriklik səlahiyyəti verilən insanlara nəsib ola bilər. Aqil müəllim uzun illər gənc nəslin və həkim kadrlarının elmi dünyagörüşünün formalaşmasında çox böyük xidmətlər göstərmişdir.

Aqil müəllim həddən artıq tələbkar idi. O, biganəliyi xoşlamırdı. Elinin obasının qədrini bilən idi, xalqa xidməti həyatının məna və məqsədi hesab edirdi. Aqil müəllim saf əqidəsi və məsləki olan ziyalı idi. Onun əqidəsi humanizmə, həqiqətə, ədalətə söykənirdi.

Aqil müəllim öz müdrikliyi, zəkası, dünyanı dərketmə qabiliyyəti ilə başqalarından fərqlənən vətəndaş alim - ziyalı idi. Antik dövr filosofu Epikürün şagirdlərindən onları müəllimə bağlayan nədir, sualına, şagirdləri belə cavab vermişlər: "Bizi Epikürə bağlayan onun həmişə özü - özünə bərabər



olmasıdır". Bu epitet tamamilə Aqil müəllimə aiddir: o həmişə özü - özünə bərabər idi, təkrarsız idi - həmişə Aqil müəllim idi! Aqil müəllim insanlığı, şəxsiyyəti, səmimiyyəti uca tutub qiymətləndirən, onu qorumağı bacaran nadir bir şəxsiyyət idi. O, adamlar arasında özünün xoş olduğu ən ülvi keyfiyyətləri ilə seçilən - sayılan, nüfuz sahibi idi. Təbiətən sakit, mülayim, həddən artıq nəvazişli və qayğıkeş idi.

Sokratdan "İnsanda ən çox nəyi qiymətləndirirsən?" -deyə soruşanda filosof tərəddüd etmədən "İnsaniyyəti, insana layiq keyfiyyətləri" cavabını verərdi. Hər bir insan üçün insaniyyətə tam sahib olmaq ən böyük şərəfdir. Məhz Aqil müəllimlə təmasda olarkən həmişə onun söz - söhbətlərindən, davranışından, özünə münasibətdə belə bir ilahi fikir nur kimi ətrafa yayılırdı: "İnsanlar, insan olun, bu Sizin birinci vəzifənizdir!". Müdrik el ağsaqqalının nəsillərə anlatmaq istədiyi saf əqidə və məslək bu idi.

Aqil müəllim cəmiyyətimiz tərəfindən birmənalı şəkildə qəbul edilən, hamı tərəfindən sevilən bir ağsaqqallıq zirvəsində dünyasını dəyişdi - haqqın dərgahına qovuşdu. Yaşamış olsaydı, indi onun 90 yaşını qeyd edərdik... Bu ad günü ərəfəsində Ulu Tanrıdan ona rəhmət diləyirik!

**Qoşqar ƏLİYEV,**
*İctimai fənlər kafedrasının müdiri, fəlsəfə elmləri doktoru, professor*

# İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin rəsmi saytı istifadəyə verilib

**Nazirlər Kabineti yanında İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin rəsmi saytı istifadəyə verilib.**

saytda icbari tibbi sığorta haqqında məlumat, bu sahədə qanunvericilik bazası, icbari sığortadan kimlərin istifadə edə biləcəyi barədə informasiya, vətəndaşları maraqlandıran suallara cavab əksini tapıb.

Saytın "Ana səhifə" bölməsində istifadəçi "İcbari tibbi sığorta nədir?", "İcbari tibbi sığortadan kimlər istifadə edə bilər?", "Vətəndaş icbari tibbi sığorta haqqında nələri bilməlidir?", "İcbari tibbi sığorta çərçivəsində vətəndaşlar hansı xidmətləri əldə edir?" kimi suallara cavab tapa bilər. Hər hansı sual yaranarsa, istifadəçinin qurumla əlaqə saxlaması üçün telefon nömrələri və elektron müraciət forması da yerləşdirilib.

Növbəti bölmədə icbari tibbi sığorta haqqında ümumi məlumat verilib. Bu bölmədə Nazirlər Kabineti yanında İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin Əsasnaməsi, fəaliyyət istiqamətləri, məqsədi barədə məlumat əldə etmək mümkündür.

"Media" bölməsində icbari tibbi sığortanın tətbiqi ilə əlaqədar mətbuatda yayılan xəbərlər, yazılar, müsahibələr və televiziya süjetləri yerləşdirilib.

"Vətəndaşlar üçün" nəzərdə tutulan növbəti bölmədə quruma ən çox ünvanlanan suallara cavab verilib.

"İcbari tibbi sığorta" bölməsində icbari tibbi sığortadan kimlərin faydalana biləcəyi, vətəndaşların hansı xidmətləri əldə edəcəyi və s. barədə ətraflı məlumat qeyd olunub.

Nəhayət, sonuncu "Qanunvericilik" bölməsində "Tibbi sığorta haqqında" Azərbaycan Respublikasının Qanunu ilə tanış olmaq imkanı yaradılıb.

Xatırladaq ki, Nazirlər Kabineti yanında İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi 2016-cı il fevralın 15-dən




fəaliyyət göstərir. Agentliyin məqsədi səhiyyə sisteminin maliyyələşdirilməsinin yeni iqtisadi əsaslarla qurulmasını və əhalinin tibbi xidmətlərdən istifadə imkanlarının artırılmasını təmin etməkdir. Agentlik səhiyyə sahəsinə ayrılan vəsaitlərin daha səmərəli istifadə edilməsi ilə əhalinin sağlamlığının yaxşılaşdırılmasına xidmət edir.

# ATU ilə Elsevier Clinical Solutions Kompaniyası arasında əməkdaşlıq sazişi imzalanıb

**Azərbaycan Tibb Universitetinin Tədris Terapevtik Klinikasında ATU ilə Elsevier Clinical Solutions Kompaniyası arasında ikitərəfli əməkdaşlıq haqda saziş imzalanıb.**

Öncə Clinical Key elektron kitabxanasının təqdimat mərasimi keçirilib.

Mərasimi açıq elan edən ATU-nun beynəlxalq əlaqələr üzrə prorektoru, dosent Rəhimə Qabulova Elsevier Clinical Solutions Kompaniyası ilə əməkdaşlığın artıq iki ildir ki, davam etdiyini bildirib.

Bu əməkdaşlıq çərçivəsində qeyd edilən mənbənin satış meneceri Atilla İkinci və Gemini Şirkətinin ölkəmizdəki rəsmi təmsilçisi Eda Özdemiroğlu universitetimizdə qonaq olublar.





Rəhimə Qabulova şirkət tərəfindən həkimlərə və rezidentlərə çox gözəl şərait yaradıldığını da diqqətə çatdırıb: "Biz Elsevier şirkətinin bazasına daxil olaraq ödənişsiz istifadə imkanı əldə etmişik. Eyni zamanda tədris və elmi tədqiqatlar üçün vacib olan, sübuta əsaslanmış ən son məlumatlar burada yer alıb".

Rəhimə Qabulova onu da qeyd edib ki, bu kompaniya ilə əlaqələrimiz gələcəkdə daha da genişlənəcək və daha böyük işlərə imza atılacaq.

Daha sonra çıxış edən Elsevier Şirkətinin satış meneceri Atilla İkinci yaradılan şəraitə görə ATU-nun elmi işlər üzrə prorektoru Rauf Bəylərova və beynəlxalq əlaqələr şöbəsinin müdiri Nadir Zeynalova minnətdarlığını bildirib.

Atilla İkinci Elsevier Kompaniyası olaraq gördükləri işlərin əsas mahiyyətindən, burada daha keyfiyyətli tibbi məlumatların yer almasından, həkimlərin dünyanı dəyişdirə biləcək yeni kəşflərlə tanış ola biləcəklərindən də danışıb.

Satış meneceri Elsevierin bütün dünyada məşhur olan bir kompaniya olduğunu da diqqətə çatdırıb və bildirib ki, kompaniyanın təmsilçisi Gökhan Baykal bir həftə ərzində universitetin klinikalarında olacaq, həkimləri maraqlandıran suallara cavab verəcək.

Daha sonra ATU-nun elmi işlər üzrə prorektoru Rauf Bəylərov çıxış edib.

Rauf Bəylərov bu işbirliyinin qurulmasında Rəhimə Qabulovanın xüsusi rolunun olduğunu bildirib və qeyd edib ki, layihə gələcəkdə öz töhfəsini verəcəkdir: "Mən inanıram ki, Elsevier şirkəti ilə əməkdaşlığımız uzun müddətli olacaq. Çünki, biz onlara şərtlərinə və Clinical Key çıxışlarına görə üstünlük verdik. Həkimlərin və rezidentlərin işinin asanlaşdırılması baxımından bu layihə çox faydalı olacaq".

Sonda Elsevier tərəfindən Clinical Keydən pulsuz istifadə etmək imkanı ilə bağlı Azərbaycan Tibb Universiteti ilə Elsevier Clinical Solutions arasında Anlaşma Memorandiumu da imzalanıb.

# ATU-da "Düzgün kliniki Praktika" seminarı keçirilib

İsrailin ölkəmizdəki səfirliyinin dəstəyi ilə Azərbaycan Tibb Universitetinin Tədris Cərrahiyyə Klinikasında bu ölkənin Ben-Qurion Universitetinin əməkdaşlarının keçirdiyi "Düzgün kliniki Praktika" (Good Clinical Practice) seminarı baş tutub.



Tədbiri açan klinikanın direktoru, professor Surxay Hadıyev tədbir iştirakçılarına seminar barədə məlumat verib. O bildirib ki, bu cür beynəlxalq tədbirlərin keçirilməsi klinik tədqiqatlar sahəsində çalışan alimlərin elmi fəaliyyətlərinin inkişafında böyük rol oynayacaq.

ATU-nun beynəlxalq əlaqələr üzrə prorektoru, dosent Rəhimə Qabulova qonaqları auditoriyaya təqdim edib. O, İsrailin ali təhsil ocaqları ilə elm və təhsil sahəsində əməkdaşlığın vacibliyini vurğulayıb.

Seminarın keçirilməsinə dəstək olan İsrailin ölkəmizdəki səfirliyinin nümayəndəsi, səfirin müavini cənab Amir Rom da əlavə edib ki, Azərbaycan-İsrail əməkdaşlığı tək bu istiqamətdə deyil, həmçinin gələcəkdə universitetlər arasında həkim-tələbə mübadiləsi sahəsində də inkişaf etdirilməlidir. Cənab Romun sözlərinə görə, Ben Qurion Universiteti və ATU arasındakı əməkdaşlıq Azərbaycanda anadan olmuş və hazırda həmin universitetdə çalışan Dr.Aleks Geftlerin təşəbbüsü ilə başlayıb.

Seminar İsrailin Ber-Şeva şəhərində yerləşən Moşe Soroka adına Universitet Tibb Mərkəzinin



Elmi Araşdırmalar Mərkəzinin koordinatoru Aviva Qrosbard və Tibb Mərkəzinin Adminstrasiyasının əməkdaşı Naomi Amixayın mühazirələri ilə davam edib. Onlar qeyd ediblər ki, bu tibb ocağı ölkədə ən böyük elmi və klinik mərkəzlərdən biridir və hazırda burada tibbin müxtəlif istiqamətlərini əhatə edən 1000-dən artıq klinik tədqiqat işi aparılacaq.

Üç gün davam edən "Düzgün kliniki Praktika" (Good Clinical Practice) seminarın yekununa həsr olunan mərasimdə, İsrailin ölkəmizə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Dan Stav iştirak edib.

Tədbirdə ATU-nun elmi işlər üzrə prorektoru Rauf Bəylərov, beynəlxalq əlaqələr üzrə prorektoru Rəhimə Qabulova, beynəlxalq əlaqələr şöbəsinin müdiri Nadir Zeynalov, Tədris Cərrahiyyə Klinikasının direktoru Surxay Hadıyev və başqaları çıxış ediblər. Qeyd olunub ki, ATU ilə Ben Qurion Universitetinin birgə təşəbbüsü ilə keçirilən bu seminar klinik tədqiqatlar sahəsində çalışan alimlərin elmi fəaliyyətlərinin inkişafında böyük rol oynayacaq. Həmçinin, İsrail və Azərbaycan arasında münasibətlərin genişlənməsinə də öz töhfəsini vermiş olacaq.

Mərasimin sonunda seminar iştirakçılarına müvafiq sertifikatlar təqdim olunub.

Təlimlərə həmçinin Səhiyyə Nazirliyi, Respublika Diaqnostika Mərkəzi və Psixi Sağlamlıq Mərkəzinin də əməkdaşları qatılıb.

**Qabil ABDULLAYEV**

# Klinikanın direktoru Elsevier Clinical Solutions və Gemini şirkətinin təmsilçiləri ilə görüşüb

**Elsevier Clinical Solutions kompaniyasının satış meneceri Atilla İkinci və Gemini şirkətinin Azərbaycandakı rəsmi təmsilçisi Eda Özdemiroğlu Tədris Terapevtik Klinikada qonaq olublar.**



Qonaqları qəbul edən Klinikanın direktoru, professor Hüseyn Qabulov onları bu tibb ocağında görməkdən məmnun olduğunu bildirib.

Tibb sahəsində daha böyük uğurlar əldə etmək, bu kompaniya ilə əlaqələri genişləndirməkdə maraqlı olduqlarını söyləyən Hüseyn Qabulov qeyd edib ki, Clinical Keydən pulsuz istifadə imkanı həkim və rezidentlərin tibbi biliklərinin təkmilləşdirilməsində çox faydalı olacaq.

Görüşdə iştirak edən Tibb Universitetinin Beynəlxalq Əlaqələr şöbəsinin müdiri, dosent Rəhimə Qabulova şirkətin təmsilçilərinə Tibb Universitetinin həkim və rezidentlərinə yaratdıqları belə şəraitə görə minnətdarlığını ifadə edib.

**ATU-nun mətbuat xidməti**

# BAHAR NƏFƏSLİ ÖMÜR...

**Yüksək sürətlə inkişaf edən cəmiyyətimizdə öz bacarığı, dərin zəkası, məharətlə idarə qabiliyyəti ilə seçilən, müxtəlif vəzifələrdə çalışan və onların öhdəsindən layiqincə gələn qadınlarımızı gördükdə hədsiz sevinc, qürur hissi duyuruq. Və bu zərif cinsin numayəndələrinin gördükləri işlərə heyran olur, onları alqışlayırıq.**



Belə bir yüksək idarəetmə qabiliyyətinə malik olan qadınlarımızdan biri də Azərbaycan Tibb Universitetinin xarici dillər kafedrasının müdiri, filologiya elmləri doktoru, professor Zemfira xanım Məmmədovadır.

Zemfira xanım 15 ildən artıqdır ki, öz aramızda "qadınlar ordusu" adlandırdığımız bu səmimi, eyni zamanda həssas kollektivə başçılıq edir. Bu illər ərzində kafedranın elmi-pedaqoji fəaliyyətində bir sıra uğurlara imza atılmış, gənc müəllimlərin bir qismi elmi işlərə cəlb olunmuş, elmi adlar almışlar.

Təkcə onu demək kifayətdir ki, ATU-nun iştirak etdiyi TEMPUS-FLEPP layihəsinin xarici dillər kafedrasında müvəffəqiyyətlə həyata keçirilməsinə Zemfira xanım bilavasitə rəhbərlik etmişdir.

Zemfira xanımın elmi fəaliyyəti və təşkilatçılıq bacarığından çox danışmaq olar. Amma düşünürəm ki, bu sadə, bacarıqlı, incə yumor hissli, ancaq işində çox ciddi olan xanım alimi yaxından tanımaq üçün onun həyat yoluna qısaca nəzər salmaq da yetər.

Z.Məmmədova 1983-cü ildə M.Əzizbəyov adına Neft-Kimya İnstitutunun (indiki Neft Akademiyası) xarici dillər kafedrasında fəaliyyətə başlamışdır. 1987-ci ildə filologiya elmləri namizədi elmi dərəcəsi almaq üçün dissertasiya müdafiə edən Zemfira xanım 1989-cu ildə müsabiqə yolu ilə xarici dillər kafedrasında müəllim vəzifəsinə seçilmiş və 2002-ci ilə kimi burada fəaliyyət göstərmişdir.

Z.Məmmədova 2002-ci ildən Azərbaycan Tibb Universitetinin xarici dillər kafedrasının müdiri vəzifəsində çalışır.

2003-cü ildə dosent elmi adına layiq görülən Zemfira xanım 2006-cı ildə Milli Elmlər Akademiyasının Koordinasiya Şurasına üzv seçilmişdir.

Z.Məmmədova 2012-ci ildə "Bədii əsərlərdə personaj nitqinin xarakteroloji xüsusiyyətləri" mövzusunda doktorluq işini müdafiə edərək filologiya elmləri doktoru alimlik dərəcəsini almışdır. 2015-ci ildən ATU-nun professorudur.

Z.Məmmədova bir çox elmi əsərlərin, o cümlədən elmi və tədris-metodiki əsərlərin, dərsliklərin, lüğətin, monoqrafiyaların, metodik tövsiyə və proqramların müəllifidir.

Bu gözəl xanım alimi yubileyi münasibəti ilə kafedranın bütün əməkdaşları adından səmimi qəlbdən təbrik edir və ona öz ülvi arzularımızı bildirərək belə deyirik:

- Qoy şirin ömrünüz qünəş şəfəqli, bahar nəfəsli, sübh nəğməli olsun!

**İradə Rza,**
*kafedranın əməkdaşı*

*Mütəxəssis sözü*

# E.Qasımov: «Qarın yırtıqlarının müalicəsinin optimal üsullarının işlənib hazırlanması sosial əhəmiyyət kəsb edir»

**Qarının ön divarında yerləşən irihəcmli yırtıqların cərrahiyyə yolu ilə aradan qaldırılmasının optimal üsullarının təkcə tibbi yox, həm də sosial əhəmiyyət kəsb edir. Bu kateqoriyadan olan xəstələrin əksəriyyətində əmək qabiliyyəti xeyli məhdudlaşır, onların bədbinliyə qapanmaları psixoloji kompleks yaradır, hətta həyat üçün təhlükə törədə bilən hallara gətirib çıxarır.**

Bunu Azərbaycan Tibb Universitetinin ümumi cərrahlıq və anesteziologiya kafedrasının assistenti, tibb üzrə fəlsəfə doktoru Elnur Qasımov deyib.




Onun sözlərinə görə, xəstəliyin əsas və yeganə müalicəsi cərrahiyyə yolu ilə aparılır. Müalicənin nəticəsinin yaxşı alınması üçün mütləq şəkildə müxtəlif tərkibli və ölçülü torlardan istifadə olunur. İndiyədək cərrahiyyə praktikasında istifadə edilən torlar primitivlikdən təkmilləşməyə doğru uzun bir yol keçib, lakin hələ də bu torlar həkimləri və xüsusən də xəstələri tam qane edəcək bir səviyyəyə çatdırılmayıb. Hazırda istifadə edilən torların müəyyən qismi əməliyyatdan sonra həcmcə kiçilir, onlarda büzüşmə gedir və təkrar yırtıqların əmələ gəlməsinə zəmin yaradır. Eyni zamanda, torlar yad cisim olduğuna görə müxtəlif növ ağırlaşmalar yarada bilir. Belə ağırlaşmaların ən təhlükəli növlərindən biri anibiotiklərin enteral və parenteral təyin edilməsinə baxmayaraq, kəskin və xroniki infeksiyanın ətraf toxumalardan torun üzərinə yayılıb həmin nahiyədə irinli proses yaratmasıdır. Bu da bəzi hallarda torun təkrar əməliyyatla çıxarılmasına və yenidən yırtığın əmələ gəlməsinə səbəb ola bilir. Buna görə istifadə edilən torların optimal variantlarının işlənib hazırlanması herniologiya elminin qarşısında duran prioritet məsələlərdəndir.

"Qeyd olunanları nəzərə alaraq son bir ildə Azərbaycan Milli Elmlər Akademiyasının nəzdində fəaliyyət göstərən və yeni texnologiyalar yaratmağa imkan verən, eləcə də zəngin elmi-praktiki potensiala malik olan Qeyri-Üzvi Kimya və Kataliz İnstitutunun laboratoriyasının əməkdaşları ilə əlaqə saxladıq, artıq bu istiqamətdə elmi işlər aparırıq. Hazırda Almaniyada, ABŞ-da və digər ölkələrdə istehsal olunan torların eksperimental yolla hazırlanmasına və cərrahi təcrübədə tətbiqinə elmin inkişafı naminə böyük maliyyə vəsaitləri sərf edilir. Bizim bu sahədə atdığımız addımlar Sankt-Peterburq alimləri ilə bağlanmış müqavilə əsasında aparılır. Diqqətimizi cəlb edən müasir texnologiyalardan biri ondan ibarətdir ki, ölkəmizdə inkişaf etmiş kimya sənayesinin imkanlarından istifadə edərək keyfiyyətlə hazırlanan torların üzərinə kimyəvi üsulla yüksək dərəcədə bakterisid xassəyə malik olan antibakterial komponentlər hopdurulur. Belə bir torun hazırlanması əməliyyatdan sonrakı mərhələdə plastika sahəsinin patogen mikroorqanizmlərdən qorunmasında və təkrar yırtıqların əmələ gəlməsinin qarşısının alınmasında mühüm əhəmiyyət kəsb edə bilər", - deyə E.Qasımov bildirib.

Azərbaycanda belə torların istehsalının mümkünlüyünə gəlincə, həkim qeyd edib ki, əvvəllər ölkəmizdə yırtıqların plastikası üçün torlardan istifadə faizi çox cüzi idi, lakin son 10 ildə beynəlxalq əlaqələrin qurulması nəticəsində cərrahların inkişaf etmiş xarici ölkələrin müasir klinikalarında təkmilləşmə kursları keçmələri onların imkanlarını genişləndirib. Bu da bizi torların hazırlanması istiqamətində tədqiqatlar aparmağa sövq edib. "Ümidverici məqamlardan biri odur ki, bizdə bu istiqamətin işlənilməsi Elmin İnkişaf Fondu tərəfindən qranta layiq görülüb. Aparılan tədqiqatlar müsbət nəticələr versə, ölkəmizdə də belə torların istehsalının reallaşması mümkün ola bilər. Bu sahədə Azərbaycan Tibb Universitetinin Elmi-Tədqiqat Mərkəzində apardığımız eksperimentlərdən əldə etdiyimiz preparatlar histoloji müayinədən keçirilib. Hesab edirik ki, belə torların işlənib hazırlanma texnologiyasının bir hissəsinin ölkəmizdə aparılmasına şərait yaransa, bu, xaricdə hazırlanan torlardan nisbətən ucuz başa gələr", - deyə E.Qasımov əlavə edib.

**Günel ASLANOVA**

# Tanınmış professor Cuzeppe Cornaglia ATU-da qonaq olub

**Noyabrın 25-də Avropa Klinik Mikrobiologiya və İnfeksion Xəstəliklər Cəmiyyətinin (European Sociaty of Clinical Microbiology and Infectious Diseases - ESCMID) beynəlxalq əlaqələr şöbəsinin müdiri, professor Cuzeppe Cornaglia ATU-da qonaq olmuşdur.**

Əvvəlcə mikrobiologiya və immunologiya kafedrasında olan hörmətli qonaq II müalicə-profilaktika fakültəsinin III kurs tələbələrinə müasir təbabətin qlobal problemlərindən birinə - mikroorqanizmlərin dərman davamlılığına həsr olunmuş maraqlı mühazirə oxumuşdur.






Sonra Tədris Terapevtik Klinikada Azərbaycan Tibbi Mikrobioloqlar və İmmunoloqlar Cəmiyyətinin üzvləri, Mikrobiologiya və immunologiya kafedrasının, ATU klinikalarının, eləcə də Bakı şəhərinin müxtəlif klinikalarının infeksion nəzarət şöbələrinin əməkdaşlarının iştirakı ilə dəyirmi masa keçirilmişdir. Dəyirmi masanın aparıcısı, Mikrobiologiya və immunologiya kafedrasının dosenti, ESCMID-in Azərbaycan üzrə nümayəndəsi dosent Vidadi Nərimanov xarici qonağı və tədbir iştirakçılarını təqdim etmişdir. ATU-nun beynəlxalq əlaqələr üzrə prorektoru, dosent Rəhimə Qabulova və Azərbaycan Tibbi Mikrobioloqlar və İmmunoloqlar Cəmiyyətinin sədri, AMEA-nın müxbir üzvü, professor Zakir Qarayev qonağı salamladıqdan sonra ESCMID və Azərbaycan arasındakı əlaqələrin müasir vəziyyəti, onun inkişaf perspektivləri və yolları müzakirə edilmişdir. Professor C.Cornaglia ESCMID ilə ATU arasındakı gələcək münasibətlərin əhəmiyyətinə toxunaraq bu cəmiyyətin xüsusilə gənclərin cəlb olunması ilə Klinik Mikrobiologiya və İnfeksion Xəstəliklər üzrə mütəxəssislər hazırlanmasına yardım etməyə hazır olduğunu qeyd etmişdir.

Dəyirmi masada ESCMID-in beynəlxalq əlaqələr şöbəsinin əməkdaşı Ədalət Abdullayev, EUCIC (European Committee on Infection Control) Azərbaycan nümayəndəsi professor Akif Qurbanov iştirak etmişlər.

**"TƏBİB"**

*Xatırlananlar*

# Sevənləriniz heç zaman sizi unutmayacaq

**Gözəl ziyalı, tanınmış həkim, həqiqi dost, etibarlı qohum, nurlu insan professor Teymur Babayevi unutmaq olarmı? Bu cür ziyalılar dünyaya tək-tək gəlirlər. O bizə nəsib olmuşdur ki, onunla bir zamanda yaşamışıq, onun nurundan bir az da bizlərin payına düşmüşdür. Teymur müəllim məğrur, demokratik ruhlu, insanlığı və gözəlliyi sevən, elmlə nəfəs alan nadir şəxsiyyətlərdən idi. Onun ölümündən artıq bir neçə ay keçsə də, bizlər onun sıramızın önündə olmadığına inanmırıq. Elə bir an olmur ki, biz onun elmi və ya həyati sözlərini, misallarını yada salmayaq.**

Teymur Əsəd oğlu Babayev 11 sentyabr 1938-ci ildə Bakı şəhərində, ziyalı ailəsində anadan olmuşdur. O, 1956- cı ildə Bakıdakı 2 saylı orta məktəbi bitirdi.

Həkim olmaq qərarına hələ orta məktəbdə oxuduğu zaman gələn T.Babayev attestatını aldıqdan sonra sənədlərini ata-anasının peşəsina yiyələnmək üçün Azərbaycan Dövlət Tibb İnstitutunun stomatologiya fakültəsinə verdi və qəbul oldu.

Təhsil aldığı illərdə gənc Teymur dərslərini yaxşı oxumaqla bərabər, həm də institutun Tələbə Elmi Cəmiyyətinin tədbirlərində tez-tez iştirak edir, ictimai işlərdə fəallığnı artırırdı. Çünki həmin vaxt onu düşündürən yalnız bir məsələ vardı, harada olur-olsun, təki sevimli stomatoloq peşəsində işləsin. Odur ki, 1961-ci ildə institutu bitirən zaman təyinatını Sabirabad rayonunun Quruzma kəndinə alanda heç bir narahathq hissi keçirmədi. Az keçməmiş bu gənc həkim adıçəkilən ünvana yola düşdü.

3 il həmin kənddə diş həkimi kimi fəaliyyət göstərəndən sonra Teymur Babayev Səhiyyə Nazirliyinin əmri ilə Bakıya çağırırdı. 1 saylı Şəhər Klinikasının üz-çənə şöbəsində işə qəbul olundu. Burada çalışdığı müddətdə özünün çox istedadlı və bacarqlı bir gənc olduğunu biruzə verdi. Buna görə də onun gələcəyinə klinikanın nəzdində fəaliyyət göstərən ADTİ-nin üz-çənə kafedrasının professoru, əməkdar elm xadimi Gülbala Qurbanovda qəti qənaət yarandı. O, bu gənc həkimin elmi potensialının geniş olduğunu görüb, təkidlə ona elmi biliyini artırmağı məsləhət görürdü. Bunu nəzərə alan T.Babayev sənədlərini aspiranturaya təqdim etdi.

1968-ci ildə aspirantura-da təhsilini bitirən gənc Teymur professor G.Qurbanovun rəhbərliyi altında elmi işini də tamamlamağa müvəffəq oldu. Beləliklə, 1969-cu ildə Moskva şəhərində namizədlik dissertasiyasını uğurla müdafiə edib tibb elmləri namizədi alimlik dərəcəsi aldı.

O, Bakıya qayıtdıqdan sonra 4 saylı Bakı şəhər stomatoloji poliklinikasında cərrah vəzifəsində çalışmağa başlayır. Bir qədər sonra isə, yəni 1971-ci ildə müsabiqə yolu ilə ADTİ-nin cərrahi stomatologiya kafedrasının assistenti vəzifəsinə seçilir.



Bu müddətdə o, saysız-hesabsız vətəndaşların sağlamlığı qeydinə də qalmışdı. Onun bu çalışqanlığı əvəzsiz ötüşmədi və 1975-ci ildə T.Babayev həmin kafedranın dosenti vəzifəsinə seçildi.

1981-ci ildə Səhiyyə Nazirliyi tərəfindən Moskva şəhərinə, M.F.Vladimrski adına Elmi-Tədqiqat Klinik İnstitutuna doktoranturaya göndərildi. Burada o, anadangəlmə və qazanılmış defektlərin aradan qaldırılması ilə məşğul oldu. 5 il bu şəhərdə işləyən T.Babayev Moskva alimlərinə özünün yeni cərrahiyyə metodlarını nümayiş etdirdi. Həmin metodlara görə "SSRİ-nin əməkdar ixtiraçısı" adına və diplomuna layiq görüldü.

1986-cı ildə doktoranturada təhsilini bitirən alim Bakıya dönərək öz əvvəlki iş yerində çalışmağa davam etdi. 1987-ci ildə dosent T.Babayev müsabiqə yolu ilə kafedra müdiri vəzifəsinə seçilməyə müvəffəq oldu. Həmin ərəfədə, yəni 1988-ci ildə Teymur Babayev doktorluq dissertasiyasını Moskva Tibbi Stomatologiya İnstitutunda uğurla müdafiə edib, tibb elmləri doktoru alimlik dərəcəsi alır.

SSRİ-nin süqutundan sonra erməni hərbi birləşmələri ölkəmizə qarşı elan olunmamış müharibəyə başladılar. Düşmənlə ölüm-dirim müharibəsinə qoşulan Azərbaycan Silahlı Qüvvələrinin hərbi birləşmələrinin üz-çənə nahiyəsindən yara alan əsgər və zabitləri Hərbi Hospitalda üz-çənə cərrahiyyəsi şöbəsi olmadığına görə 1 saylı Şəhər Klinik Xəstəxanasının üz-çənə cərrahiyyəsi şöbəsinə yerləşdirilirdilər. Odur ki, həmin əsgərlərin müalicəsi və reabilitasiyası da həmin şöbədə yerinə yetirilirdi. Təkcə bu faktı qeyd edək ki, 1991-1994-cü illərdə həmin xəstəxananın üz-çənə cərrahiyyə şöbəsində 300-ə qədər yaralı müalicə olunmuşdu.

Teymur Babayev bir çox ölkələrdə-Rusiya, Türkiyə, Almaniya, Finlandiya və başqa ölkələrdə keçirilən elmi konfranslara da qatılmışdı.

Beləliklə, o, 20 il kafedra müdiri işləyərək, müstəqil Azərbaycanın tibb elminin inkişafı üçün bir sıra mühüm işlər görüb, öz töhfəsini vermişdi.

Belə ki, o, indiyədək 10 nəfər tibb elmləri namizədi və 1 nəfər elmlər doktoru hazırlamışdır. O, 2000-ci ildə ATU-nun yaradılmasının 70 illiyi münasibətilə mükafatlandırılan alimlərin sırasında "Tərəqqi" medalı ilə təltif olunmuşdur.

Qadir insan əlləri başşar tarixində neçə-neçə möcüzənin müəllifi olmuşdur. Nadir memarlıq üslubunda ucaldılmış binalar, canlı boyalarla çəkilmiş tablolar, məharətlə yonulmuş heykəltaraşlıq nümunələri tamaşaçıları ovsunlayır, onlara yüksək estetik zövq aşılayır. Lakin insanın insan üzərində cərrahlıq əməliyyatı aparmaqla yaratdıqları möcüzələr daha diqqətə layiqdir. Azərbaycan Tibb Universitetinin ağız və üz-çənə cərrahiyyəsi kafedrasının professoru Teymur Babayev də bu möcüzələrin müəlliflərindən ən layiqli olanlardandır.

Hipokrat demişdir: "Həkim filosofdur, ona görə ki, müdrikliklə təbabət arasında elə böyük fərq yoxdur". Teymur müəllim özü ən böyük müdrik və ürəyiaçıq bir insan olduğuna görə həkimlik məktəbində həmişə müdriklik dərslərinə yer ayırırdı. O, daim xeyirxahlığı ilə kimsəsizlərin əlacı, kasıbların köməyi olurdu. Başqa ölkələrdən gələn tələbələr valideyin qayğısını o insandan görürdü. Haqsızlıqla barışmayan insanın ürəyi demokratik ruh üzərində döyünürdü.

İş yoldaşları ilə oturub-duranda öz maraqlı söhbətləri ilə hamını valeh edər, diqqət mərkəzində qalardı. Təbiət mənzərələrinin ecaskar gözəlliklərini heç kim görmədiyi gözlərlə görərdi. Səhər tezdən Tovuzda Mamırtı dağının ətəyində günəşin çıxdığını, Qusarda Sah dağının arxasında günəşin gizləndiyini necə seyr edib dəyərləndirməyi mənə o böyük insan öyrətmişdir.

Əzizimiz Teymur müəllim! Rahat uyuya bilərsiniz. Sizi tanıyan insanların, tələbələrin qəlbində həmişə xoş xatirələrlə yaşayacaqsınız.

Sevənləriniz sizi heç zaman unutmayacaqlar!

**Fərman HƏSƏNOV,**
*Ağız və üz-çənə cərrahiyyəsi kafedrasının assistenti, tibb üzrə fəlsəfə doktoru*

# ELEKTON KİTABXANA MÜASİR DÖVRÜN TƏLƏBİDİR

**XXI əsrin informasiya texnologiyalarının inkişaf istiqamətləri içərisində müxtəlif növlü, tipli və məzmunlu sənədləri mühafizə edən elektron informasiya daşıyıcılarının hazırlanması, sistemləşdirilməsi, mühafizəsi və şəbəkə rejimində uzaq məsafədən istifadəsi vacib yer tutur. Bütün bu istiqamətlər kompleks şəkildə elektron kitabxanaların yaradılmasında və elektron kitabxana-informasiya təminatının təşkilində öz əksini tapır. Elektron kitabxanalar tarixən mövcud olan şəbəkə kitabxana-informasiya xidmətinin yeni metod, vasitə və texnologiyalar baxımından məntiqi davamıdır. Elektron kitabxanalar superaçıq informasiya sistemləridir.**

Əsaslı kitabxanamız universitet rəhbərliyinin diqqət və qayğısını daim hiss edir. Kitabxana müasir informasiya texnologiyaları ilə təchiz edilmiş, müasir tələblərə cavab verən İRBİS-64 avtomatlaşdırılmış kitabxana-informasiya sistemi (AKİS) ilə təmin edilmişdir. İRBİS-64 AKİS-nin kitabxanamızda tətbiqinə 2010-cu ilin aprel ayından başlanılmışdır. Bu sistem kitabxanamızın beynəlxalq informasiya məkanına daxil olmasınının, dünya standartlarına uyğun elektron kitabxananın və elektron kataloqunun yaradılmasınının, təhsil və elmi tədqiqatlar üçün əsas amil olan və bütövlükdə cəmiyyətin inkişafına birbaşa təsir edən elektron mənbələrindən sərbəst istifadə olunmasının təminatçısıdır. Bu sistem imkan verir ki, biz öz zəngin kitab fondumuzu, həmçinin alimlərimizin elmi fəaliyyətlərinin nəticəsi olan kitab və jurnalları, məqalələri dünya istifadəçilərinə təqdim edək və eyni zamanda dünya kitabxanalarının zəngin kitab fondundan müəllim və tələbələrimizin istifadə etməsinə də şərait yaradaq.

Hazırda kitabxanamızda IRBİS-64 sisteminin "Komplekləşdirmə", "Kataloqlaşdırma", "Oxucu", "Kitab verilişi" və "Administrator" modulları üzrə fəal iş gedir. "Elektron Kataloq" modulu kitabxana fondunun elektron versiyasının, yəni elektron kataloqunun yaradılmasını həyata keçirir. Bu modul üzrə elmi kitabxanamızda çox ciddi iş gedir. Artıq tibbi ədəbiyyatın çox böyük bir hissəsi: 20 000 adda azərbaycan, türk, rus, ingilis dillərində olan kitablar elektron kataloquna daxil edilmişdir. Həmçinin 10. 100 qəzet məqaləsi və 17. 000 jurnal məqaləsi də elektron kataloqunda öz əksini tapmışdır. Qeyd edə bilərik ki, latın qrafikalı və kiril qrafikalı Azərbaycan dilində olan bütün ədəbiyyat, həmçinin Heydər Əliyev fondu tərəfindən kitabxanamıza hədiyyə edilmiş çoxlu sayda yeni tibbi ədəbiyyat, ulu öndərimiz Heydər Əliyevə və Prezident İlham Əliyevə həsr edilmiş kitablar artıq elektron kataloqunda öz əksini tapmışdır. Bu kataloqda ən qədim kitab XIX əsrin əvvəllərində çap olunmuş kitabdır.

Elektron kataloq kitabxana fondunun "güzgüsüdür" desək səhv etmərik. Bu kataloq vasitəsilə istifadəçilərə uzaq məsafədən operativ informasiya xidməti göstərmək, həmçinin fondun idarə olunmasını həyata keçirmək mümkündür. Elektron kataloq biblioqrafik informasiya bazasının daha etibarlı qorunmasına şərait yaradır və istifadəçinin ona zərər yetirməsini praktiki olaraq qeyri mümkün edir.

Kitabxananın İnternetdə yerləşdirilmiş elektron kataloqu dünyanın istənilən nöqtəsindən istifadəçiyə kitabxanamızın fondu ilə tanış olmağa, lazımi ədəbiyyat axtarışını aparmağa və tapılmış ədəbiyyatı sifariş etməyə, ədəbiyyatın elektron variantı olduqda isə, onu əldə etməyə imkan verir. Universitet əməkdaşlarının elmi əsərlərinin, dərsliklərin, dərs vəsaitlərinin tammətnli elektron versiyalarını yaradaraq daha səmərəli elektron xidməti həyata keçirmək, kitabxanamızı ən qabaqcıl elmi informasiya mərkəzinə çevirmək qarşımızda duran vacib işlərdəndir. Biz bütün fəaliyyətimizi və gücümüzü bu istiqamətə yönəldərək mühüm işlər görməyə çalışırıq.

Elektron kataloq kitabxanalararası biblioqrafik informasiya mübadiləsini təmin etməklə yanaşı, həm də hər bir kitabxananın "imicini" formalaşdırır.

Kitabxananın yüksək nüfuza və reytinqə malik olması üçün elektron



kataloq zəngin, dolğun məlumat bazasına və mükəmməl axtarış aparatına malik olmalıdır. Məhz bununla kitabxana coğrafi uzaqlıqdan, yerləşdiyi məkandan asılı olmayaraq özünə dünyanın istənilən yerindən istifadəçi cəlb edərək xidmət göstərə bilər.

Bu xidmət istifadəçi sifarişini uzaq məsafədən yerinə yetirməklə kitabxanalararası elektron sənəd mübadiləsini də təmin edir.

Elektron kitabxanalar müasir dövrün əsas tələbi olub, cəmiyyətin informasiyalaşdırılmasında, elmi-ədəbiyyatın təbliğində və əldə edilməsində mühüm rol oynayırlar. O, uzaq məsafədən oxuculara daha dolğun informasiya xidməti göstərərək, bu xidmətin zaman və məkandan asılılığına son qoyur. Elektron kitabxanalar informasiya mübadiləsi sistemlərinin, virtual informasiya mühitinin yaradılmasına, distan təhsilin inkişafına, cəmiyyətin peşə və ümumi mədəniyyət səviyyəsinin artmasına xidmət göstərirlər. Onun vasitəsilə oxucular dünyanın istənilən nöqtəsindən 24 saat müddətində kitabxananın informasiya bazasından istifadə edə bilirlər.

Müasir dövrdə ən operativ informasiyanı əldə etmək üçün internetdən istifadə əvəzsiz sayılır. Elmi informasiya təminatını isə elektron kitabxanalar daha çox təmin edirlər. Müəllim, tələbə və ya elmi işçi, əlavə vaxt itkisinə yol vermədən, istədiyi kitabı, məqaləni, informasiyanı, olduğu məkandan asılı olmayaraq, internetə yerləşdirilmiş Elektron Kitabxanaya daxil olmaqla əldə edə biləcəkdir. Elektron Kitabxana həm də kitabxana fondunun qorunub saxlanılmasına xidmət edir. Xüsusilə nadir və bir nüsxədən ibarət olan kitablar, internetdə öz əksini taparaq, ələ verilmədən, çox sayda tələbətçı tərəfindən eyni zamanda istifadəsinə şərait yaradılır.

Hazırda kitabxanamızda bu istiqamətdə çox fəal işlər gedir.

**Ziyafət Eminova,**
*Əsaslı kitabxananın direktoru, tarix elmləri üzrə fəlsəfə doktoru*
**Gülarə Qarayeva,**
*Elmi kitabişləmə və kataloqlaşdırma şöbəsinin müdiri*

AZƏRBAYCAN RESPUBLİKASI SƏHİYYƏ NAZİRLİYİ
AZƏRBAYCAN TİBB UNİVERSİTETİ

# KAFEDRALAR ÜZRƏ AŞAĞIDAKI YERLƏRİ TUTMAQ ÜÇÜN MÜSABİQƏ ELAN EDİR

**Kafedraların müdirləri:**

- Mikrobiologiya və immunologiya kafedrası
- Stomatologiya kafedrası (müalicə-profilaktika və digər fakültələr üçün)
- II cərrahi xəstəliklər kafedrası
- II uşaq xəstəlikləri kafedrası

**Kafedraların dosentləri (fəlsəfə doktorları):**

- I mamalıq və ginekologiya kafedrası - 1 yer (0,5 vahid)
- Oftalmologiya kafedrası - 1 yer (0,5 vahid)
- Tibbi fizika və informatika kafedrası -1 yer
- Ümumi cərrahlıq və anesteziologiya kafedrası - 1 yer
- Tibbi profilaktika kafedrası - 1 yer

**Kafedraların assistentləri:**

- Terapevtik və pediatrik propedevtika kafedrası - 1 yer (0,25 vahid)
- I uşaq xəstəlikləri kafedrası - 1 yer (0,5 vahid)
- II daxili xəstəliklər kafedrası - 1 yer (0,5 vahid)
- İmmunologiya kursu -1 yer (0,5 vahid)
- İctimai sağlamlıq və səhiyyənin təşkili kafedrası -1 yer (0,5 vahid)
- Bioloji kimya kafedrası -1 yer (0,5 vahid)
- Qulaq, burun, boğaz xəstəlikləri kafedrası -1 yer

**Kafedraların baş müəllimi:**

- Tibbi biologiya və genetika kafedrası -1yer

**Kafedraların müəllimləri:**

- Xarici dillər kafedrası -1 yer (0,75 vahid)
- Xarici dillər kafedrası -1 yer

**Müsabiqədə iştirak etmək üçün sənədlərin təqdim olunma müddəti elan qəzetdə («Təbib» qəzeti, 30 noyabr 2016-cı il) dərc olunduğu gündən 30 gün keçənədəkdir. Sənədlər rektorun adına yazılmış ərizə ilə birlikdə aşağıdakı ünvana təqdim edilməlidir:**

**Bakı şəhəri - Az 1007, Ənvər Qasımzadə, 14:**
**Telefon: (012) 597-43-23**

## Gənclər tütünün zərərləri ilə bağlı maarifləndiriliblər




**Səhiyyə Nazirliyinin İctimai Səhiyyə və İslahatlar Mərkəzi (İSİM) noyabrın 29-da tütünlə mübarizəyə dair növbəti maarifləndirmə aksiyası keçirib.**

Səhiyyə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, "Tütünsüz dünya yarat!" devizi ilə "Park Bulvar"da təşkil olunan aksiya zamanı İSİM-in mütəxəssisləri gənclərə tütünün zərərləri haqqında məlumat veriblər.

Aksiyanın sonunda iştirakçılara maarifləndirici materiallar paylanılıb.

## Etibarsız sayılır

I müalicə-profilaktika fakültəsinin V kurs, $104^{b}$ qrup tələbəsi Abbasova Ləman Nemət qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Stomatologiya fakültəsinin I kurs, $784^{b}$ qrup tələbəsi İsmayılova Jalə Vaqif qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Stomatologiya fakültəsinin III kurs, $723^{a}$ qrup tələbəsi Burcalıyeva Xəyalə Müşfiq qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Əliyeva Sevgiladə Şamil qızına 2006- cı ildə Azərbaycan Tibb Universiteti tərəfindən stomatoloq ixtisası üzrə verilmiş internatura vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

### Tibb aləmində

## Bağırsaqda çox güclü antibiotik tapılıb

**İnsanın bağırsağında elə maddələr var ki, onlardan çox güclü antibiotik almaq mümkündür. AZƏRTAC "mir24.tv" saytına istinadla xəbər verir ki, insan bədənində mikroorqanizmləri tədqiq edən Rokfeller Universitetinin (Nyu-York) alimləri belə bir kəşf ediblər.**



Onlar bağırsaqlarda yaşayan bakteriya növlərinin analizi zamanı yeni növ mikroorqanizmlər- "Rhodococcus" fəsiləsindən bakteriyalar aşkar ediblər.

Sonra alimlər həmin bakteriyalarda antibiotik elementlərini üzə çıxarmağa müvəffəq olublar. Bu elementlərə qumimitsin A və qumimitsin B adları verilib. Amerika alimləri ümid edirlər ki, qumimitsin stafilokok və streptokoklarla mübarizə aparmağa kömək edəcək.

Daha əvvəl britaniyalı alimlər ana südü zülalı əsasında antibiotik yarada biliblər. Yeni dərman qızılı stafilokok bağırsaq çöpü bakteriyalarını çox sürətlə məhv edir.

## Yuxusuzluq tədricən beyni sıradan çıxarır

**Alimlər yuxunun insan beyninə təsirinin tədqiqi ilə məşğul olublar. Məlum olub ki, insanların çoxunun əziyyət çəkdiyi yuxusuzluq baş beynin fəaliyyətində dəyişiklik yaradır.**



AZƏRTAC "oane.ws" saytına istinadla xəbər verir ki, Çin alimləri yuxusuzluğun insan beyninə mənfi təsir göstərdiyinə əmindirlər. Vaxtaşırı yuxusuzluqdan əziyyət çəkən adamların baş beynində pozuntular baş verir. Xroniki xarakter daşıyan yuxusuzluq nəticəsində insanda ağ maddənin strukturu dağıla bilər. Mütəxəssislər aydınlaşdırıblar ki, gün ərzində depressiya içində olan adamların yuxusu pozulur. Belə emosional vəziyyətdə beynin sağ yarımkürəsində yerləşən və yuxuya məsuliyyət daşıyan ağ maddənin bütövlüyü pozulur.

Beyin strukturunun pozulması myelin maddəsinin itməsinə gətirib çıxarır. Nəticədə yuxu da pozulur. Bu maddə beynin sinir liflərini bürüyür. Mütəxəssislər myelinin bərpası yolunu tapmağı planlaşdırırlar, çünki bu, yuxusuzluq problemini həmişəlik həll etməyə imkan verər.

## Tələbə autizmin diaqnostikası üçün əlavə hazırlayıb

**Nyu-York Universitetinin mütəxəssisi Kun U Ço başqa mütəxəssislərlə birlikdə iki yaşdan kiçik uşaqlarda autizmin diaqnostikası üçün əlavə yaradıb. Yeni proqramı smartfon, kompyuter və ya planşetə yükləmək olar.**

AZƏRTAC "UPI.com" saytına istinadla xəbər verir ki, sosial vəziyyət təsvirlərinə baxış prosesində bu proqram vasitəsilə uşaqların göz hərəkətləri izlənib. Sonra o, məlumatlar təhlil edilib, autizm əlamətləri axtarılıb. Mütəxəssislərin fikrincə, autizm spektri pozulmayan uşaqlar belə şəkillərə autistlərlə müqayisədə daha uzun müddət baxırlar. Məsələ bundadır ki, autizm spektri pozulan uşaqlar sosial münasibətləri başa düşə bilmirlər.



Yeni əlavənin köməyi ilə diaqnostika prosesi cəmi 54 saniyə çəkir. Proqram 93,96 faiz dəqiqliklə diaqnoz qoymağa imkan verir. Mütəxəssislər vurğulayırlar ki, əlavə üzərində iş başa çatmayıb. Gələcəkdə valideynlər narahatlıq üçün əsas olub-olmadığını bu əlavə sayəsində müəyyən edə biləcəklər.

## Qanın köməyi ilə cavanlaşma mümkün deyil

**Cavan adamların qanının yaşlı adamlara köçürülməsi yolu ilə onların cavanlaşmasına həsr olunmuş tədqiqatlar son illər daha da çoxalıb. Alimlər gəmiricilər üzərində tədqiqatlardan insanlar üzərində eksperimentlərə keçir, eyni zamanda qanda hansı cavanlaşdırıcı maddələrin olduğunu da üzə çıxarmağa çalışırlar..**

AZƏRTAC "popsci.com" saytına istinadla xəbər verir ki, İrina Konboy başda olmaqla Kaliforniya Universitetindən olan tədqiqatçıların fikrincə, cavan adamın qanının hər hansı möcüzəvi xüsusiyyətləri yoxdur, qoca adamın qanı isə zəhərli ola bilər. Onlar eksperimentin köməyi ilə göstəriblər ki, cavan siçanlardan daha yaşlı siçanlara qan köçürülməsi heyvanların vəziyyətini dəyişməyib. Lakin əks prosedur - qoca gəmiricilərin qanının cavan siçanlara köçürülməsi isə ciddi sağlamlıq problemləri yaradıb. Bu ehtimal etməyə əsas verir ki, yaşlandıqca qanda "qocalma amilləri" toplanır.



2005-ci ildə Konboy və onun həmkarları müxtəlif yaşlı iki siçanın qan-damar sistemlərini birləşdiriblər. Bu prosedur nəticəsində daha yaşlı gəmiricilərdə əzələ toxumasının, qaraciyər, ağciyər toxumalarının və orqanların bərpası müşahidə olunub. Bundan belə nəticə çıxarılıb ki, yaxşılaşma cavan qanın təsiri ilə baş verib.

İndi alimlər hesab edirlər ki, "qoca" qanda hüceyrənin inkişafı və bölünməsi prosesinə mane olan molekullar var. Onlar cavan qanda olan birləşmələrdən daha güclü təsir göstərir. Qanköçürmədən sonra heyvanların vəziyyəti buna görə pisləşib. Tədqiqat müəllifləri eyni təsirə malik birləşmələri müəyyən etmədirlər. Onları eyniləşdirə bilsələr, 2-ci tip diabet, osteoporoz və immun çatışmazlığı kimi xəstəliklərin müalicəsinə yol aça bilərlər.

## Allah rəhmət eləsin!

"Təbib" qəzetinin kollektivi və ictimai fənlər kafedrasının əməkdaşları kafedranın professoru Fəxrəddin Məmmədova əmisi
**Şeyh Abbas Şirvaninin**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

II uşaq xəstəlikləri kafedrasının əməkdaşları kafedranın professoru Səfixan Həsənova qardaşı
**Telman Həsənovun**
vaxtsız vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Normal fiziologiya kafedrasının əməkdaşları kafedranın keçmiş dosenti
**Cavid Nadirəli oğlu Hacıyevin**
vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Yoluxucu xəstəliklər kafedrasının əməkdaşları kafedranın assistenti Ofelya xanım Abdullayevaya əzizi
**Fikrət Sadığın**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Patoloji anatomiya kafedrasının əməkdaşları kafedranın dosenti Teymur Məmmədova oğlu
**Xəyalın**
vaxtsız vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan dili kafedrasının əməkdaşları iş yoldaşları Elnarə Məmmədovaya əmisi
**Məmmədhəsən kişinin**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Baş redaktor
**ELDAR İSMAYIL**

Müəlliflərlə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.
*Əlyazmalar geri qaytarılmır.*

Qəzet "Təbib" qəzetinin kompyuter mərkəzində yığılır, səhifələnir, "Bəxtiyar-4" İKŞ-də çap olunur.

**ÜNVANIMIZ:**
**Mərdanov qardaşları - 98c**
**2-ci mərtəbə,**
**Tel.: 595-24-97**
**tabibqazeti@gmail.com**

Lisenziya H - 022633
İndeks -0269
Sayı 3000
Sifariş: 360